**AZƏRBAYCAN RESPUBLİKASININ SƏHİYYƏ NAZİRLİYİ**

**AZƏRBAYCAN TİBB UNİVERSİTETİ**

---

**"BƏYƏNİLMİŞDİR"**
Azərbaycan Tibb Universitetinin
Təhsilin Keyfiyyətinin Təminatı
və İnnovasiya şöbəsinin müdiri

**prof.A.İ.QURBANOV**

____________________

**"TƏSDİQ EDİRƏM"**
Azərbaycan Tibb Universitetinin
Mərkəzi Metodik Komissiyasının
sədri

**ə.e.x.. prof. S.C.ƏLİYEV**

______________________

"____"___________2017-ci il

Protokol № ______

# ORTOPEDİK STOMATOLOGİYA

**fənni üzrə**

## P R O Q R A M

**BAKI – 2017**

# Azərbaycan Tibb Universitetinin
# Ortopedik stomatologiya kafedrasının tədris
# P R O Q R A M I

## Ortopedik stomatologiyanın predmeti

Ortopedik stomatologiyanın predmeti. Məqsəd və vəzifələri. Ortopedik stomatologiyanın bölmələri: ortopedik stomatologiyanın propedevtikası; diş tacı qüsurlarının çıxmayan protezlərlə müalicəsi; hissəvi adentiyanın çıxmayan protezlərlə müalicəsi; hissəvi adentiyanın çıxan protezlərlə müalicəsi; tam adentiyanın çıxan protezlərlə müalicəsi; implantüstü protezləmə; gicgah-çənə oynağı xəstəliklərinin ortopedik müalicəsi; parodont xəstəliklərinin ortopedik müalicəsi; üz-çənə ortopediyası.

Ortopedik stomatologiyanın digər elm sahələri ilə, o cümlədən profil və qeyri-profil tibb sahələri ilə qarşılıqlı əlaqəsi.

Ortopedik stomatologiya klinikasında hazırlanan əsas konstruksiyalar. Ortopedik stomatologiyanın inkişaf tarixi. Azərbaycanda ortopedik stomatologiya elmi.

Ortopedik stomatologiya kabinetləri və diş texniki laboratoriyaları. Ortopedik stomatologiya klinikasının iş prinsipi və mövcud olan şöbələri: klinika, laboratoriya, qeydiyyat, mühasibat, arxiv və s. Şöbələrin avadanlığı və təchizatı. Maliyyə-hesabat sənədləri.

Ortopedik stomatologiya kabinetində dezinfeksiya və sterilizasiya.

## Üz-çənə nahiyəsinin funksional anatomiyası

Üz-çənə nahiyəsinin funksional anatomiyası. Çənələrin embrional və postembrional dövrlərdəki inkişafı. Yuxarı və aşağı çənələrin quruluşu. Yuxarı və aşağı çənələrdə kompakt və süngəri maddənin xüsusiyyətləri. Kontrforslar. Yaşla əlaqədar çənə sümüklərində baş verən dəyişikliklər. Sərt və yumşaq damaq.

Ağız boşluğunun yumşaq toxumaları. Ağız boşluğunun selikli qişasının quruluşu. Selikli qişanın tipləri. Hərəkətli və hərəkətsiz selikli qişa. Keçid pərdəsi. «A» xətti. Selikli qişanın yüyənlərinin topoqrafiyası.

Üz-çənə nahiyəsinin əzələləri. Aşağı çənəni hərəkətə gətirən əzələlər: aşağı çənəni endirən, qaldıran, yanlara çəkən, önə hərəkət etdirən əzələlər. Mimiki əzələlər. Dilin və yumşaq damağın əzələləri, onların nitqin əmələ gəlməsində, udqunma və tənəffüs aktında rolu.

Gicgah-çənə oynağı. Quruluşu. Gicgah-çənə oynağındakı hərəkətlər. Yaşla əlaqədar oynaqda baş verən dəyişikliklər. Dişləmin növü və funksional xüsusiyyətləri ilə əlaqədar gicgah-çənə oynağının formalaşması.

Dişin morfologiyası. Sərt və yumşaq toxumaları. Diş mayalarının formalaşması və minerallaşması. Süd və daimi dişlərin çıxma müddətləri. Müxtəlif qrup dişlər və onların anatomo-funksional xüsusiyyətləri. Yuxarı və aşağı çənələrdəki mərkəzi kəsici, yan kəsici, köpək, birinci və ikinci premolyar, birinci, ikinci və üçüncü molyar dişlərin anatomik quruluşu.

Diş sıralarının quruluşu, inkişaf mərhələləri və yaşdan asılı olan xüsusiyyətləri, yuxarı və aşağı çənələrdə onların formaları. Dişlərin öz yuvalarında möhkəm yerləşməsini təmin edən amillər: dişlərarası təmaslar, dairəvi bağlar, köklərin yerləşmə xüsusiyyətləri. Sagital və transverzal okklüziya əyriləri, okklüziya xətti. Diş qövsü, alveolyar və bazal qövslər.

Parodontun quruluşu və funksiyaları. Trofik, baryer, plastik, amortizasiyaedici, çeynəmə təzyiqinin reflektor tənzimi funksiyaları. Parodontun ehtiyat qüvvəsi.

Arlikulyasiya və okklüziya. Okklüziyanın növləri: mərkəzi, ön, yan, distal okklüziya. Dişləm. Növləri: fizioloji və patoloji dişləmlər. Fizioloji dişləmin növləri: ortoqnatik, düz, fizioloji biproqnatiya, fizioloji opistoqnatiya. Patoloji dişləmin növləri: distal, mezial, dərin, açıq, çarpaz dişləmlər. Ortoqnatik dişləmdə mərkəzi okklüziyanın əlamətləri: azı dişlərin qapanmasına, frontal dişlərin qapanmasına, diş sıralarının qapanmasına xas olan əlamətlər.

Üzün quruluşu və onun antropometrik xüsusiyyətləri. Üzün aşağı üçdə bir

hissəsinin hündürlüyü. Nisbi fizioloji sakitlik vəziyyəti. Dişləmin hündürlüyü.

Aşağı çənənin biomexanikası. Aşağı çənənin sagital hərəkəti, bu zaman oynaq başlarının vəziyyəti. Saqital oynaq və kəsici diş yolları, sagital oynaq və kəsici diş yolu bucaqları. Aşağı çənənin önə hərəkəti zamanı diş sıralarının münasibəti. Aşağı çənənin transverzal hərəkəti, bu zaman oynaq başlarının vəziyyəti. Transverzal oynaq və kəsici diş yolları, transverzal oynaq və kəsici diş yolu bucaqları.

Çeynəmə əzələlərinin mütləq gücü, parodontun dözümlülüyü, çeynəmə effekti. Çeynəmə aktı. Qidanı dişləyərkən və çeynəyərkən aşağı çənənin çeynəmə hərəkətlərinin fazaları.

## Ortopedik stomatologiya klinikasında xəstənin müayinəsi

Ortopedik stomatologiya klinikasında xəstənin müayinəsi. Subyektiv müayinə. Anamnez. Xəstəlik anamnezi, xəstənin həyat anamnezi, xəstənin keçirdiyi və xəstəliyi müşayiət edən digər xəstəliklər.

Ortopedik stomatologiya klinikasında deontologiya.

Üzün xarici müayinəsi: dərinin və selikli qişanın vəziyyəti. Gicgah-çənə oynağı nahiyəsinin, çənəaltı vəzlərin, qulaqətrafı tüpürcək vəzlərinin palpasiyası. Ağız boşluğu selikli qişasının müayinəsi: xarici görünüşü, palpasiyası, hərəkətliliyin təyin edilməsi, temperatur, taktil və dad hissiyyatının müəyyənləşdirilməsi.

Dişlərin, diş cərgələrinin və parodontun müayinəsi. Vizual baxış, zondlama, perkussiya, palpasiya, dişlərin laxlama dərəcəsinin müəyyənləşdirilməsi, parodontun atrofiya dərəcəsinin təyin edilməsi.

Dişləmin növünün təyin edilməsi, diaqnostik modellərin analiz edilməsi, dişləmin hündürlüyünün təyin edilməsi.

Rentgen müayinə üsulları: kontakt rentgenoqrafiya, rentgenvizioqrafiya, telerentgenoqrafiya, ikiölçülü tomoqrafiya, üçölçülü kompüter tomoqrafiya.

Xüsusi müayinə üsulları: elektroodontometriya, qalvanometriya, termodiaqnostika. Parodontun təzyiqə davamlılığının yoxlanılması, qnatodinamometriya.

Ağız boşluğunun selikli qişasında qan damarlarının funksional vəziyyətinin aydınlaşdırılması: kapilyaroqrafiya, reoparodontoqrafiya, bufer zonalarının təyin edilməsi.

Çeynəmə effektinin statik və funksional üsullarla təyini. Çeynəmə əzələlərinin funksiyasının öyrənilməsi. Çeynəmə hərəkətlərinin qrafik qeydiyyatı. Miotonometriya, elektromioqrafiya, elektromiomastikosioqrafiya.

Gicgah-çənə oynağının müayinəsi: palpasiya, auskultasiya, rentgenoqrafiya, tomoqrafiya, elektromioartroqrafiya, fonoqrafiya.

Ümumi klinik müayinənin aparılması. Allerqoloji müayinə. Qanın, ağız suyunun biokimyəvi analizləri.

Xəsləliyin nozoloji formasının dəqiqləşdirilməsi. Diaqnozun təyin edilməsi.

Xəstəlik tarixi, onun tibbi, statistik və hüquqi sənəd kimi əhəmiyyəti.

Xəstələrin protezləməyə psixoloji hazırlanması. Ağız boşluğunun protezləməyə hazırlanması.

## Ortopedik stomatologiyada istifadə olunan materiallar

Ortopedik stomatologiyada istifadə olunan əsas və köməkçi materiallar. Təsnifatı, onlara olan tibbi-bioloji təlabatlar. Materialların ümumi xarakteristikası: mexaniki, fiziki, kimyəvi, texnoloji amillər.

Metal xəlitələri. Lehimlər. Plastik kütlələr. Çini materialları. Sitallar. Modelləşdirici materiallar. Sementlər. Örtük materialları. Abraziv materiallar. Gips, növləri, ortopedik stomatologiya laboratoriyasında tətbiq sahələri.

Ortopedik stomatologiyada istifadə edilən ölçülər. Növləri, təyinatı. Ölçü qaşıqları. Ölçü materialları, onlara olan tibbi-bioloji tələbatlar. Kristallaşan, termoplastik, alginat, polimerləşən ölçü materialları. Modellər. Növləri, təyinatı.

## Diş tacı qüsurlarının çıxmayan protezlərlə müalicəsi

Diş tacının qüsurları. Etiologiyası, formaları. Diş tacı qüsurlarının müalicəsində hazırlanan ortopedik konstruksiyalar, növləri, istifadəsinə göstərişlər.

Dişin yonulmasında tətbiq edilən anesteziyalar. Növləri, aparılma texnikası.

Diş yonulmasının əsas prinsipləri. İstifadə olunan alətlər. Dişin sərt toxumalarının qorunması. Pulpanın və periodontun yonulmaya qarşı reaksiyası. Çıxmayan protezin diş üzərində fiksasiya və stabilizasiyasının təmin edilməsi. Diş ətlərinin retraksiyası. Retraksiya sapları və məhlulları. Diş boynunda yaradılan pillələrin növləri, formalaşdırılma üsulları.

Diş sırası qüsurlarında tətbiq edilən ölçülər və ölçü materialları. Yuxarı və aşağı çənələrdən ölçülərin alınması. Modellərin hazırlanması. Artikulyatorlar. Modellərin artikulyatora bağlanılması.

Frontal dişlərin qüsurlarının müalicəsində estetik və ortopedik gözləntilər.

Taxmalar, növləri. Dişin tacında boşluqların formalaşdırılma prinsipləri. Müxtəlif dişlər üçün inleylərin (*inlay*) hazırlanması. Müxtəlif dişlər üçün onleylərin (*onlay*) hazırlanması. Müxtəlif dişlər üçün overleylərin (*overlay*) hazırlanması.

Vinirlər (*veneer*). Vaksap (*wax-up*). Mokap (*mock-up*). Müxtəlif dişlər üçün vinirlərin hazırlanması.

Tam keramik qapaqlar. İstifadəsinə göstərişlər. Müxtəlif dişlərin tam keramik qapaq altına yonulması.

Metal-keramik qapaqlar. İstifadəsinə göstərişlər. Müxtəlif dişlərin metal-keramik qapaq altına yonulması.

Müvəqqəti qapaqlar. Hazırlanma üsülları, fiksasiya qaydaları.

Diş tacının tam qüsurunun bərpası. Güdüllü konstruksiyalar (*post core*). Növləri. İstifadəsinə göstərişlər. Diş tacının tam qüsurunda kök kanallarının qiymətləndirilməsi. Kanalların hazırlanması. Güdüllü konsrtuksiyaların hazırlanma üsulları. Ölçülərin alınması. Güdüllü konstruksiyaların fiksasiya qaydaları.

Diş tacı qüsurlarında hazırlanan çıxmayan konstruksiyaların sementlənməsi. İzolyasiyada kofferdamın istifadə edilməsi.

Ağız boşluğundan çıxmayan protezlərin xaric edilməsi.

Diş tacı qüsurlarında tətbiq edilən çıxmayan konstruksiyaların

hazırlanmasının laborator mərhələləri.

Dişlərin patoloji sürtülməsi. Növləri, klinik xüsusiyyətləri. Dişlərin patoloji sürtülməsi zamanı okklüziya hündürlüyünün azalması. Dişlərin patoloji sürtülməsinin ortopedik müalicəsi.

## Hissəvi adentiyanın çıxmayan protezlərlə müalicəsi

Hissəvi adentiya. Təsnifatı. Dişlərin qismən itirilməsinin etiologiyası, klinikası, morfoloji, funksional, estetik, fonetik və psixoloji amilləri. Hissəvi qüsurlar zamanı diş-çənə sistemində morfo-funksional tamlığın pozulması: funksiyada iştirak edən və etməyən dişlərin əmələ gəlməsi. Hissəvi qüsurların orqanizmə mənfi təsiri.

Hissəvi adentiya zamanı xəstənin klinik-rentgenoloji müayinəsi. Dayaq dişlərinin qiymətləndirilməsi.

Hissəvi adentiyada ortopedik müalicənin planlanılması. Hissəvi adentiyanın müalicəsində hazırlanan ortopedik konstruksiyalar. Növləri, istifadəsinə göstərişlər. Körpüyəbənzər protezlərin konstruktiv elementləri.

Hissəvi adentiyada dişlərin yonulmasının əsas prinsipləri. Dayaq dişlərinin paralelliyinin yaradılması. Müxtəlif növ pillələrin formalaşdırılması. Körpüyəbənzər protezdə dayaq dişlərinin metal-keramik qapaqlar altına yonulması. Körpüyəbənzər protezdə dayaq dişlərinin tam keramik qapaqlar altına yonulması. Dayaq elementləri taxmalar olan körpüyəbənzər protezlərin hazırlanması. Üç və artıq sayda dayaq elementləri olan körpüyəbənzər protez hazırlandıqda dayaq dişlərinin yonulması.

Müvəqqəti körpüyəbənzər protezlər. Hazırlanma üsülları, fiksasiya qaydaları.

Hissəvi adentiyanın müalicəsində tətbiq edilən ölçülər, ölçü materialları, ölçü qaşıqları. Hissəvi adentiyalı yuxarı və aşağı çənələrdən ölçülərin alınması və modellərin hazırlanması. Hissəvi adentiyada çənələrin mərkəzi münasibətinin təyini. Okklüziyal yastıqlı bazisin hazırlanması. Artikulyatorlar. Modellərin

artikulyatora bağlanılması. Hissəvi adentiyada hazırlanan çıxmayan konstruksiyanın yoxlanılması, sementlənməsi.

Hissəvi adentiyada tətbiq edilən çıxmayan konstruksiyaların hazırlanmasının laborator mərhələləri.

Diş sıralarının ikincili deformasiyaları. Növləri. Diş sıralarının ikincili deformasiyalarında ortopedik müalicənin xüsusiyyətləri. Diş sıralarının ikincili deformasiyalarında körpüyəbənzər protez hazırladıqda dayaq dişlərinin yonulma prinsipləri.

Adgeziv körpüyəbənzər protezlər. İstifadəsinə göstərişlər. Hazırlanma üsülları, fiksasiya qaydaları.

Parodontu zəifləmiş dişlərin yonulmasının əsas prinsipləri.

## Hissəvi adentiyanın çıxan protezlərlə müalicəsi

Hissəvi adentiyada çıxan protezlərin hazırlanmasına göstərişlər. Diş sırasının hissəvi qüsurlarının bərpasında istifadə olunan protezlərin funksional, estetik, fonetik, gigiyenik, psixoloji, profilaktik nöqteyi-nəzərdən müqayisəli qiymətləndirilməsi.

Hissəvi çıxan protezlərin əsas konstruktiv elementləri. Protezin bazisi, sərhədləri. Metal karkasın hissələri, böyük və kiçik bağlayıcılar, sərhədləri. Okklüziya pəncələri. Klammerlər, növləri. Müxtəlif klammerlərin quruluş xüsusiyyətləri. Klammer xətti. Klammer sistemi. Aşırmaəleyhinə elementlər – kipmayderlər.

Hissəvi adentiyalı xəstələrin klinik və rentgenoloji müayinəsi, diaqnostik modellərin analizi. Hissəvi çıxan protezlərin hazırlanmasında istifadə olunan materiallar və alətlər. Paralelometriya, üsulları.

Hissəvi çıxan protezlərin hazırlanmasında tətbiq edilən ölçülər və ölçü materialları. Yuxarı və aşağı çənələrdən ölçülərin alınması. Gips modellərin hazırlanması.

Hissəvi adentiya zamanı çənələrin mərkəzi münasibətinin təyini. Okklüziyal yastıqlı bazisin hazırlanması. Çənələrin mərkəzi münasibətinin fiksasiyası. Üz qövsünün istifadəsi.

Hissəvi çıxan lövhəli protezlərin hazırlanmasında istifadə olunan artikulyatorlar, modellərin artikulyatora bağlanılması. Süni dişlər. Hissəvi çıxan protezləri hazırladıqda süni dişlərin düzülməsi üsulları. Protezin mum konstruksiyasının ağız boşluğunda yoxlanma qaydaları. Süni dişlərin, qövsün, klammerlərin yerləşdirilməsinin, təbii dişlərlə təmas nahiyəsində protezin formasının klinik qiymətləndirilməsi.

Hissəvi çıxan lövhəli və bügel protezlərinin xəstəyə təhvil verilməsi. Hissəvi çıxan protezin yatağına oturdulması, hazır protezin klinik qiymətləndirilməsi. Xəstənin maariflənməsi üçün verilən tövsiyyələr.

Hissəvi çıxan protezə uyğunlaşma. Protez bazisində aparılan yeniləmə işləri, klammerin, süni dişlərin əlavə edilməsi.

Hissəvi çıxan protezlərin hazırlanmasının laborator mərhələləri, texnoloji proseslər, istifadə olunan materiallar.

Standart qıfılbəndlərdən *(attachment)* istifadə etməklə hazırlanan hissəvi çıxan protezlər. Aşağı çənə üçün dilaltı qövsü olmadan, yuxarı çənə üçün damaq lövhəsi olmadan hazırlanan teleskopik protezlər. Klinik və laborator mərhələlər. Xəstə üçün rahatlığı və parodont xəstəliklərinin profilaktikasında rolu.

## Tam adentiyanın çıxan protezlərlə müalicəsi

Tam adentiya. Dişsiz çənələrin anatomo-fizioloji xüsusiyyətləri. Təsnifatı. Yaşla əlaqədar dişsiz çənələrdə gedən dəyişikliklər. Tam çıxan lövhəli protezin konstruktiv xüsusiyyətləri. Protezin sərhədləri.

Dişsiz çənələrdə protezlərin fiksasiyası və stabilizasiyası.

Tam dişsiz xəstələrin klinik-rentgenoloji müayinəsi. Tam çıxan lövhəli protez hazırlanacaq xəstələrdə ortopedik müalicənin planlanılması. Ortopedik müalicəyə hazırlıq.

Ölçü materialının və qaşığın seçilməsi. Yuxarı və aşağı çənələrdən anatomik ölçülərin alınması və modellərin hazırlanması. Fərdi qaşıqlar, hazırlanma üsulları. Herbstin funksional sınaqlarını aparmaqla fərdi qaşıqların uyğunlaşdırması. Yuxarı və aşağı çənələrdən funksional ölçülərin alınması və modellərin hazırlanması.

Nisbi fizioloji sakitlik vəziyyəti. Təyini üsulları. Çənələrin mərkəzi münasibəti. Təyini və fiksə edilməsi üsulları. Tam çıxan lövhəli protezlərin hazırlanmasında istifadə olunan artikulyatorlar. Modellərin artikulyatora bağlanılması. Süni dişlər. Düzülməsi üsulları.

Tam çıxan lövhəli protezin mum konstruksiyasının ağız boşluğunda yoxlanılması. Səhvlərin aşkar edilməsi və aradan qaldırılması yolları.

Tam çıxan lövhəli protezlərin təhvili. Protezin yatağına oturdulması. İlk dəfə tam çıxan lövhəli protez gəzdirən xəstənin maariflənməsi üçün verilən tövsiyyələr. Tam çıxan lövhəli protezi olan xəstələrin qidalanması.

Tam çıxan lövhəli protezə uyğunlaşma. Tam çıxan lövhəli protezlərin korreksiyası. Okklüziyanın tənzimlənməsi. Tam çıxan lövhəli protez yatağında əmələ gələn dəyişikliklər.

Bir çənə üçün tam çıxan lövhəli protez hazırlanmasının xüsusiyyətləri. İmmediat tam çıxan lövhəli protezlər. Ahıl yaşda olanların protezlənməsinin xüsusiyyətləri. Diş köklərini saxlamaqla *(overdenture)* düzəldilən protezlər.

Tam çıxan lövhəli protezlərin hazırlanmasının laborator mərhələləri.Tam çıxan lövhəli protezlərin təmiri. Bazisin yeniləşdirilməsi. Lövhənin dəyişdirilməsi. Yumşaq astar materialları.

## İmplantüstü protezləmə

İmplantüstü protezləmə. Dental implantların hazırlanacaq ortopedik konstruksiyaya uyğun planlanması. Diş implantlarından istifadənin əsaslandırılması. Dental implantasiyada protezləmə üsulları. Dental implantasiyada biomexanika. İmplant dəstəkli protezlərdə okklüziyanın tənzimlənməsi. Diaqnostik vizualizasiya üsulları. Diaqnostik modellər və cərrahi şablonlar.

Abatmentlər *(abutment),* növləri, xüsusiyyətləri. Abatmentlərin protez konstuksiyasına uyğun seçilməsi. İmplant-abatment birləşməsində diqqət ediləcək məqamlar. İmplantüstü sementlənən və vidalanan konstruksiyalarla protezləmə.

İmplantlardan istifadə etməklə hissəvi adentiyalı çənələrin protezlənməsi. Tək diş implantasiyasında protezləmə. İmplant ətrafı təbii dişlərin mövcudluğunda ortopedik müalicənin xüsusiyyətləri. Açıq və qapalı qaşıq üsulu ilə ölçülərin alınması. İstifadə edilən ölçü materialları. Açıq qaşıq üsulunda istifadə edilən hissələrə ayrılan və fərdi hazırlanmış qaşıqlar. Təkfazalı və ikiqat ölçü materialları.

İmplantlardan istifadə etməklə tam adentiyalı çənələrin protezlənməsi. İmplant dəstəkli çıxan konstruksiyalarda abatment seçimi. Lokator-abatmentlər *(locator abutment),* bol-abatmentlər *(ball abutment),* bar-konstruksiyalar *(bar system).* Dental implantasiyadan sonra dərhal yükləmə. Dental implantlara qulluq. Periimplantitlərin profilaktikasında gigiyenik tədbirlərin vacibliyi.

## Dişlərin patoloji sürtülməsinin, gicgah-çənə oynağı xəstəliklərinin, parodont xəstəliklərinin ortopedik müalicəsi

Dişlərin patoloji sürtülməsi. Etiologiyası. Növləri, kliniki xüsusiyyətləri. Dişləmin növünün patoloji sürtülmənin şaquli, üfüqi və qarışıq formalarının əmələ gəlməsində rolu. Dişlərin patoloji sürtülməsi zamanı üzün aşağı üçdə bir hissəsinin və okklüziya hündürlüyünün azalması. Dişlərin patoloji sürtülməsinin ortopedik müalicəsi.

Gicgah-çənə oynağının anatomo-fizioloji xüsusiyyətləri. Artrit, artroz, adəti çıxıq və yarımçıxıqlar. Etiologiyası, klinikası, diaqnostikası, differensial diaqnostikası. Diş-çənə sisteminin xəstəliklərinin gicgah-çənə oynağına təsiri. Gicgah-çənə oynağının xəstəliklərinin kompleks müalicəsində ortopedik aparatların tətbiq olunması. Dişləmin korreksiyası. İnterokklüziyal şinalar.

Parodont xəstəlikləri zamanı yaranan travmatik okklüziya. Parodont xəstəliklərinin ortopedik müalicəsinin əsas prinsipləri. Ortopedik aparatların

müalicəvi təsirinin biomexaniki əsasları. Seçmə hamarlama üsulu. Daimi və müvəqqəti şinalar. Müasir konstruksiyalı çıxan və çıxmayan şinalar.

## Üz-çənə ortopediyası

Üz-çənə qüsurları. Təsnifatı. Üz-çənə qüsurlarında hazırlanan ortopedik konstruksiyalar. Təsnifatı.

Çənə sınıqlarında ilk ortopedik həkim yardımı. Yuxarı çənənin sınıqları. Etiologiyası, təsnifatı, klinikası, sınıq fraqmentlərinin yerini dəyişməsi. Ortopedik müalicəsi. Aşağı çənənin sınıqları. Etiologiyası, təsnifatı, klinikası, sınıq fraqmentlərinin yerini dəyişməsi. Ortopedik müalicəsi.

Obturatorlar. Yuxarı və aşağı çənə rezeksiyalarında ortopedik müalicə.

Üz nahiyəsində ağızxarici qüsurların müalicəsində epitezlərin hazırlanması.

# İZAHAT VƏRƏQƏSİ

Ortopedik stomatologiya fənninin tədrisi 4 kursda, 7 semestrdə aparılır.

## II kurs

IV semestr – Ortopedik stomatologiyanın propedevtikası

90 saat – 3 kredit

Mühazirələr – 10 saat

Təcrübi dərslər – 35 saat

Sərbəst iş – 45 saat

## III kurs

V semestr – Diş tacı qüsurlarının çıxmayan protezlərlə müalicəsi

90 saat – 3 kredit

Mühazirələr – 14 saat

Təcrübi dərslər – 31 saat

Sərbəst iş – 45 saat

VI semestr – Hissəvi adentiyanın çıxmayan protezlərlə müalicəsi

120 saat – 4 kredit

Mühazirələr – 14 saat

Təcrübi dərslər – 46 saat

Sərbəst iş – 60 saat

## IV kurs

VII semestr – Hissəvi adentiyanın çıxan protezlərlə müalicəsi

90 saat – 3 kredit

Mühazirələr – 10 saat

Təcrübi dərslər – 35 saat

Sərbəst iş – 45 saat

VIII semestr – Tam adentiyanın çıxan protezlərlə müalicəsi

90 saat – 3 kredit

Mühazirələr – 10 saat

Təcrübi dərslər – 50 saat

Sərbəst iş – 30 saat

İstehsalat təcrübəsi – 3 kredit

**V kurs üzrə**

IX semestr – Seçim fənlər:

1. Çıxmayan protezlər
2. Çıxan protezlər
3. İmplantüstü protezlər

120 saat – 4 kredit

Mühazirələr – 16 saat

Təcrübi dərslər – 59 saat

Sərbəst iş – 45 saat

X semestr – Klinik ortopedik stomatologiya

180 saat – 6 kredit

Mühazirələr – 20 saat

Təcrübi dərslər – 115 saat

Sərbəst iş – 45 saat

Dövlət imtahanı – 3 kredit

# MÜHAZİRƏLƏRİN MÖVZU PLANLARI

# Ortopedik stomatologiya – 1
# ORTOPEDİK STOMATOLOGİYANIN PROPEDEVTİKASI

II kurs IV semestrdə

mühazirələrin mövzu planı

1. Ortopedik stomatologiyanın predmeti. Ortopedik stomatologiya klinikasında hazırlanan əsas konstruksiyalar. Ortopedik stomatologiyanın inkişaf tarixi. Azərbaycanda ortopedik stomatologiya elmi. Ortopedik stomatologiya kabinetləri və diş texniki laboratoriyaları. Ortopedik stomatologiya kabinetində dezinfeksiya və sterilizasiya.

2. Üz-çənə nahiyəsinin funksional anatomiyası. Yuxarı və aşağı çənə. Ağız boşluğunun selikli qişası. Gicgah-çənə oynağı. Üz-çənə nahiyəsinin əzələləri. Parodont. Dişlər. Diş sıraları. Artikulyasiya və okklüziya. Dişləm, fizioloji və patoloji növləri. Aşağı çənənin biomexanikası. Çeynəmə aktı.

3. Ortopedik stomatologiya klinikasında xəstənin müayinəsi. Deontologiya qaydaları. Klinik müayinə. Xüsusi müayinə üsulları. Rentgen müayinəsi. Çeynəmə effekti və onun təyin edilmə üsulları. Ümumi klinik müayinə. Xəstənin protezləməyə hazırlanması.

4. Ortopedik stomatologiyada istifadə olunan əsas və köməkçi materiallar. Onlara olan tibbi-bioloji, mexaniki, fiziki, kimyəvi, texnoloji tələbatlar. Metal xəlitələri, lehimlər, plastik kütlələr, sitallar, çini kütlələri. Modelləşdirici, örtük, sement, abraziv materiallar. Gips, növləri, ortopedik stomatologiyada tətbiq sahələri.

5. Ortopedik stomatologiyada istifadə edilən ölçülər. Növləri, təyinatı. Ölçü qaşıqları. Ölçü materialları, onlara olan tibbi-bioloji tələbatlar. Kristallaşan, alginat, termoplastik, polimerləşən ölçü materialları. Modellər. Növləri, təyinatı.

## Ortopedik stomatologiya – 2

# DİŞ TACI QÜSURLARININ ÇIXMAYAN PROTEZLƏRLƏ MÜALİCƏSİ

III kurs V semestrdə

mühazirələrin mövzu planı

1. Üz-çənə nahiyəsinin funksional anatomiyası. Dişlər. Parodont. Diş ətrafı bioloji en anlayışı. Diş sıraları. Okklüziya. Dişləm. Diş tacı qüsurlarının müalicəsində çənələrin mərkəzi münasibətinin təyini. Üz qövsünün *(face-bow)* tətbiqi. Artikulyatorlar.

2. Diş tacının qüsurları. Kariyes və qeyri-kariyes mənşəli xəstəliklərin dişin sərt toxumalarına təsiri. Diş tacı qüsurlarının müalicəsində hazırlanan ortopedik konstruksiyalar. Növləri, istifadəsinə göstərişlər.

3. Diş yonulmasının əsas prinsipləri. Dişin sərt toxumalarının qorunması. Pulpanın və periodontun yonulmaya qarşı reaksiyası. Çıxmayan protezin diş üzərində fiksasiya və stabilizasiyasının təmin edilməsi. Diş ətlərinin retraksiyası. Diş boynunda yaradılan pillələr.

4. Diş tacı qüsurlarının taxmalar vasitəsilə bərpa edilməsi. Onley (*onlay*), inley (*inlay*), overley (*overlay*) konstruksiyalarının hazırlanma prinsipləri.

5. Vinirlər (*veneer*). Vaksap (*wax-up*) və mokapın (*mock-up*) hazırlanma prinsipləri. Frontal dişlərin qüsurlarının müalicəsində estetik və ortopedik gözləntilər.

6. Diş tacı qüsurlarının qapaqlarla müalicəsinin əsaslandırılması. Tam keramik qapaqlar. Metal-keramik qapaqlar. Dişlərin tam keramik və metal-keramik qapaq altına yonulmasının əsas prinsipləri.

7. Müvəqqəti qapaqlar. Hazırlanma üsulları. Diş tacı qüsurlarında tətbiq edilən çıxmayan konstruksiyaların hazırlanmasının laborator mərhələləri.

# Ortopedik stomatologiya – 3

# HİSSƏVİ ADENTİYANIN ÇIXMAYAN PROTEZLƏRLƏ MÜALİCƏSI

III kurs VI semestrdə
mühazirələrin mövzu planı

1. Dişlərin patoloji sürtülməsi. Növləri, klinik xüsusiyyətləri. Dişlərin patoloji sürtülməsi zamanı okklüziya hündürlüyünün azalması. Dişlərin patoloji sürtülməsinin ortopedik müalicəsi.

2. Diş tacının tam qüsurunun bərpası. Diş tacının tam qüsurunda kök kanallarının qiymətləndirilməsi. Güdüllü konstruksiyalar (*post core*), hazırlanma üsulları, ölçülərin alınması və konstruksiyanın fiksasiya qaydaları.

3. Hissəvi adentiya. Etiologiyası, klinikası, diaqnostikası, təsnifatı. Hissəvi adentiya zamanı üz-çənə sistemində yaranan dəyişikliklər. Xəstələrin müayinəsi. Dayaq dişlərinin qiymətləndirilməsi. Hissəvi adentiyada ortopedik müalicənin planlanılması. Körpüyəbənzər protezlərlə müalicənin bioloji və klinik əsaslandırılması. Körpüyəbənzər protezlərin konstruktiv xüsusiyyətləri.

4. Hissəvi adentiyada dişlərin yonulmasının əsas prinsipləri. Hissəvi adentiyanın müalicəsində tətbiq edilən ölçülər. Hissəvi adentiyada çənələrin mərkəzi münasibətinin təyini. Artikulyatorlar. Müxtəlif konstruksiyalı dayaq elementləri olan körpüyəbənzər protezlərin hazırlanmasının klinik-laborator mərhələləri. Müvəqqəti körpüyəbənzər protezlər.

5. Diş sıralarının ikincili deformasiyaları. Növləri, klinik xüsusiyyətləri. Ortopedik müalicənin xüsusiyyətləri. Diş sıralarının ikincili deformasiyalarında dişlərin yonulmasının əsas prinsipləri.

6. Adgeziv körpüyəbənzər protezlər. Konstruktiv xüsusiyyətləri, hazırlanma üsülları. Diş sırası qüsurlarında parodontu zəifləmiş dişlərin ortopedik müalicəsinin planlanılması. Parodontu zəifləmiş dişlərin yonulmasının əsas prinsipləri.

7. Diş tacı və diş sırası qüsurlarının çıxmayan konstruksiyalarla müalicəsində buraxılan səhvlər. Qarşısının alınması yolları. Çıxmayan konstruksiyaların istifadəsi zamanı yarana biləcək ağırlaşmalar. Aradan qaldırılma üsulları.

## Ortopedik stomatologiya – 4

# HİSSƏVİ ADENTİYANIN ÇIXAN PROTEZLƏRLƏ MÜALİCƏSİ

IV kurs VII semestrdə
mühazirələrin mövzu planı

1. Hissəvi adentiya. Etiologiyası, təsnifatı. Dişlərin ifrat funksional yüklənməsi. Diş sırası qüsurlarında hissəvi çıxan protezlərin hazırlanmasına göstərişlər. Hissəvi çıxan protezin növləri. Çeynəmə yükünün paylanılması prinsipləri. Hissəvi çıxan protezlərin biomexanikası. Hissəvi çıxan lövhəli və bügel protezlərinin ağız boşluğunda fiksasiya və stabilizasiyası. Hissəvi çıxan protezlərin istifadəsi zamanı yarana biləcək ağırlaşmalar.

2. Hissəvi çıxan protezin hazırlanmasında istifadə olunan əsas və köməkçi materialların xüsusiyyətləri. Hissəvi çıxan protezlərin əsas konstruktiv elementləri. Protezin bazisi, sərhədləri. Metal karkasın hissələri, böyük və kiçik bağlayıcılar, sərhədləri. Okklüziya pəncələri. Klammerlər, növləri. Müxtəlif klammerlərin quruluş xüsusiyyətləri. Klammer xətti. Klammer sistemi. Aşırmaəleyhinə elementlər – kipmayderlər. Paralelometriya, üsulları.

3. Hissəvi adentiyalı xəstənin klinik və rentgenoloji müayinəsi, diaqnostik modellərin analizi. Hissəvi adentiyalı çənələrdən ölçülərin alınma prinsipləri. Hissəvi adentiya zamanı çənələrin mərkəzi münasibətinin təyini və fiksasiyası. Üz qövsünün istifadəsi.

4. Artikulyatorlar. Süni dişlər. Hissəvi çıxan lövhəli və bügel protezləri hazırladıqda süni dişlərin düzülməsi üsulları. Protezin mum konstruksiyasının ağız boşluğunda yoxlanma qaydaları.

5. Hissəvi çıxan lövhəli və bügel protezlərinin xəstəyə təhvil verilməsi. Hazır protezin klinik qiymətləndirilməsi. Hissəvi çıxan protezə uyğunlaşma. Xəstəyə verilən məsləhət və tövsiyyələr.

## Ortopedik stomatologiya – 5

# TAM ADENTİYANIN
# ÇIXAN PROTEZLƏRLƏ MÜALİCƏSİ

IV kurs VIII semestrdə
mühazirələrin mövzu planı

1. Tam adentiya. Dişsiz çənələrin anatomo-fizioloji xüsusiyyətləri. Təsnifatı. Yaşla əlaqədar dişsiz çənələrdə gedən dəyişikliklər. Dişsiz çənələrin biomexanikası. Dişsiz çənələrdə tam protezlərin fiksasiya və stabilizasiya üsulları. Tam çıxan protezin konstruktiv xüsusiyyətləri. Tam dişsiz xəstələrin klinik-rentgenoloji müayinəsi. Tam çıxan lövhəli protez hazırlanacaq xəstələrdə ortopedik müalicənin planlanılması. Ortopedik müalicəyə hazırlıq.

2. Dişsiz çənələri protezlədikdə çənələrdən alınan anatomik, funksional, differensial ölçülər. Ölçü materialının seçiminin əsaslandırılması. Herbstin funksional sınaqları. Aşağı çənənin nisbi fizioloji sakitlik vəziyyəti. Təyini üsulları. Çənələrin mərkəzi münasibəti. Təyini və fiksə edilməsi üsulları.

3. Tam çıxan lövhəli protezlərin hazırlanmasında istifadə olunan artikulyatorlar. Modellərin artikulyatora bağlanılması. Süni dişlər. Düzülməsi üsulları. Tam çıxan lövhəli protezin mum konstruksiyasının ağız boşluğunda yoxlanılması. Səhvlərin aşkar edilməsi və aradan qaldırılması yolları.

4. Tam çıxan lövhəli protezlərin təhvili. Protezin yatağına oturdulması. İlk dəfə tam çıxan lövhəli protez gəzdirən xəstənin maariflənməsi üçün verilən tövsiyyələr. Tam çıxan lövhəli protezi olan xəstələrin qidalanması. Protezlərin korreksiyası.

Okklüziyanın tənzimlənməsi. Tam çıxan lövhəli protez yatağında əmələ gələn dəyişikliklər.

5. Bir çənə üçün tam çıxan lövhəli protez hazırlanmasının xüsusiyyətləri. İmmediat tam çıxan lövhəli protezlər. Ahıl yaşda olanların protezlənməsinin xüsusiyyətləri. Diş köklərini saxlamaqla *(overdenture)* düzəldilən protezlər.

## Ortopedik stomatologiya – 6

## Seçim fənn

# ÇIXMAYAN PROTEZLƏR

V kurs IX semestrdə
mühazirələrin mövzu planı

1. Diş tacının qüsurları. Etiologiyası, formaları. Diş tacı qüsurlarının müalicəsində hazırlanan ortopedik konstruksiyalar, növləri, istifadəsinə göstərişlər. Diş yonulmasının əsas prinsipləri. Dişin sərt toxumalarının qorunması. Pulpanın və periodontun yonulmaya qarşı reaksiyası. Çıxmayan protezin diş üzərində fiksasiya və stabilizasiyasının təmin edilməsi. Diş ətlərinin retraksiyası. Diş boynunda yaradılan pillələr.

2. Diş tacı qüsurlarının taxmalar vasitəsilə bərpa edilməsi. Onley (*onlay*), inley (*inlay*), overley (*overlay*) konstruksiyaları. Vinirlər (*veneer*). Vaksap (*wax-up*) və mokapın (*mock-up*) hazırlanma prinsipləri. Frontal dişlərin qüsurlarının müalicəsində estetik və ortopedik gözləntilər.

3. Diş tacı qüsurlarının qapaqlarla müalicəsinin əsaslandırılması. Tam keramik qapaqlar. Metal-keramik qapaqlar. Dişlərin tam keramik və metal-keramik qapaq altına yonulması prinsipləri. Müvəqqəti qapaqlar. Diş tacı qüsurlarında tətbiq edilən çıxmayan konstruksiyaların hazırlanmasının laborator mərhələləri.

4. Diş tacının tam qüsurunun bərpası. Diş tacının tam qüsurunda kök kanallarının qiymətləndirilməsi. Güdüllü konstruksiyalar (*post core*), hazırlanma üsulları, ölçülərin alınması və konstruksiyanın fiksasiya qaydaları.

5. Dişlərin patoloji sürtülməsi. Növləri, klinik xüsusiyyətləri. Dişlərin patoloji sürtülməsi zamanı okklüziya hündürlüyünün azalması. Dişlərin patoloji sürtülməsinin ortopedik müalicəsi.

6. Hissəvi adentiya. Etiologiyası, klinikası, diaqnostikası, təsnifatı, üz-çənə sistemində yaranan dəyişikliklər. Dayaq dişlərinin qiymətləndirilməsi, ortopedik müalicənin planlanılması. Körpüyəbənzər protezlərlə müalicənin bioloji və klinik əsaslandırılması, konstruktiv xüsusiyyətləri. Hissəvi adentiyada diş yonulmasının əsas prinsipləri, tətbiq edilən ölçülər, çənələrin mərkəzi münasibətinin təyini. Artikulyatorlar.

7. Müxtəlif konstruksiyalı dayaq elementləri olan körpüyəbənzər protezlərin hazırlanmasının klinik-laborator mərhələləri. Diş sıralarının ikincili deformasiyaları. Növləri, klinik xüsusiyyətləri. Ortopedik müalicənin xüsusiyyətləri. Diş sıralarının ikincili deformasiyalarında dişlərin yonulmasının əsas prinsipləri.

8. Müvəqqəti körpüyəbənzər protezlər. Adgeziv körpüyəbənzər protezlər. Konstruktiv xüsusiyyətləri, hazırlanma üsülları. Diş sırası qüsurlarında parodontu zəifləmiş dişlərin ortopedik müalicəsinin planlanılması. Parodontu zəifləmiş dişlərin yonulmasının əsas prinsipləri.

# Ortopedik stomatologiya – 6

## Seçim fənn

## ÇIXAN PROTEZLƏR

V kurs IX semestrdə
mühazirələrin mövzu planı

1. Hissəvi adentiya. Etiologiyası, təsnifatı. Hissəvi çıxan protezlər, növləri, hazırlanmasına göstərişlər, biomexanikası. Çeynəmə yükünün paylanılması prinsipləri. Hissəvi çıxan lövhəli və bügel protezlərinin ağız boşluğunda fiksasiya və stabilizasiyası. Hissəvi çıxan protezlərin əsas konstruktiv elementləri, hazırlanmasında istifadə olunan əsas və köməkçi materiallar. Protezin bazisi, metal karkasın hissələri, böyük və kiçik bağlayıcılar, okklüziya pəncələri, kipmayderlər. Klammerlər. Paralelometriya, üsulları.

2. Hissəvi adentiyalı xəstələrin klinik və rentgenoloji müayinəsi, diaqnostik modellərin analizi. Hissəvi adentiyalı çənələrdən ölçülərin alınma prinsipləri. Hissəvi adentiya zamanı çənələrin mərkəzi münasibətinin təyini və fiksasiyası. Üz qövsü. Artikulyatorlar. Süni dişlər. Lövhəli protezləri hazırladıqda süni dişlərin düzülməsi üsulları.

3. Hissəvi çıxan protezin mum konstruksiyasının ağız boşluğunda yoxlanma qaydaları. Hissəvi çıxan lövhəli və bügel protezlərinin xəstəyə təhvil verilməsi. Hazır protezin klinik qiymətləndirilməsi. Hissəvi çıxan protezə uyğunlaşma. Xəstəyə verilən məsləhət və tövsiyyələr. Hissəvi çıxan protezlərin istifadəsi zamanı yarana biləcək ağırlaşmalar.

4. Tam adentiya. Dişsiz çənələrin anatomo-fizioloji xüsusiyyətləri. Təsnifatı. Yaşla əlaqədar dişsiz çənələrdə gedən dəyişikliklər. Dişsiz çənələrin biomexanikası. Tam çıxan protezlərin fiksasiya və stabilizasiya üsulları. Tam çıxan lövhəli protezin konstruktiv xüsusiyyətləri.

5. Tam dişsiz xəstələrin klinik-rentgenoloji müayinəsi. Tam çıxan protez hazırlanacaq xəstələrdə ortopedik müalicənin planlanılması. Ortopedik müalicəyə hazırlıq. Dişsiz çənələri protezlədikdə çənələrdən alınan anatomik, funksional, differensial ölçülər. Ölçü materialının seçiminin əsaslandırılması. Herbstin funksional sınaqları.

6. Aşağı çənənin nisbi fizioloji sakitlik vəziyyəti. Təyini üsulları. Çənələrin mərkəzi münasibəti. Təyini və fiksə edilməsi üsulları. Tam çıxan lövhəli protezlərin hazırlanmasında istifadə olunan artikulyatorlar. Modellərin artikulyatora bağlanılması. Süni dişlər. Düzülməsi üsulları.

7. Tam çıxan lövhəli protezin mum konstruksiyasının ağız boşluğunda yoxlanılması. Səhvlərin aşkar edilməsi və aradan qaldırılması yolları. Tam çıxan lövhəli protezlərin təhvili. Protezin yatağına oturdulması. İlk dəfə tam çıxan protez gəzdirən xəstənin maariflənməsi üçün verilən tövsiyyələr. Protezə uyğunlaşma. Tam çıxan protezi olan xəstələrin qidalanması.

8. Çıxan protezlərin korreksiyası. Okklüziyanın tənzimlənməsi. Tam çıxan lövhəli protez yatağında əmələ gələn dəyişikliklər. Bir çənə üçün çıxan lövhəli protez hazırlanmasının xüsusiyyətləri. İmmediat tam çıxan lövhəli protezlər. Ahıl yaşda olanların protezlənməsinin xüsusiyyətləri. Diş köklərini saxlamaqla *(overdenture)* düzəldilən protezlər.

## Ortopedik stomatologiya – 6

## Seçim fənn

# İMPLANTÜSTÜ PROTEZLƏR

V kurs IX semestrdə
mühazirələrin mövzu planı

1. Hissəvi adentiya. Etiologiyası, klinikası, diaqnostikası, təsnifatı. Hissəvi adentiya zamanı üz-çənə sistemində yaranan dəyişikliklər. Xəstələrin müayinəsi. Dayaq dişlərinin qiymətləndirilməsi. Dişlərin ifrat funksional yüklənməsi.

2. Hissəvi adentiyada ortopedik müalicənin planlanılması. Diş sırası qüsurlarının müalicəsində çıxmayan protezlərin hazırlanmasına göstərişlər. Körpüyəbənzər protezlərlə müalicənin bioloji və klinik əsaslandırılması. Körpüyəbənzər protezlərin konstruktiv xüsusiyyətləri. Hissəvi adentiyada çıxmayan protezlərin istifadəsi zamanı yarana biləcək ağırlaşmalar.

3. Diş sırası qüsurlarında hissəvi çıxan protezlərin hazırlanmasına göstərişlər. Hissəvi çıxan protezin növləri, konstruktiv xüsusiyyətləri. Hissəvi çıxan protezlərin biomexanikası. Çeynəmə yükünün paylanılması prinsipləri. Hissəvi çıxan protezlərin istifadəsi zamanı yarana biləcək ağırlaşmalar.

4. Tam adentiya. Dişsiz çənələrin anatomo-fizioloji xüsusiyyətləri. Təsnifatı. Yaşla əlaqədar dişsiz çənələrdə gedən dəyişikliklər. Dişsiz çənələrin biomexanikası. Tam çıxan lövhəli protezin konstruktiv xüsusiyyətləri. Çeynəmə yükünün paylanılması prinsipləri. Tam çıxan lövhəli protezlərin istifadəsi zamanı yarana biləcək ağırlaşmalar.

5. Diş implantlarından istifadənin əsaslandırılması. Dental implantasiyada protezləmə üsulları. Dental implantasiyada biomexanika. İmplant dəstəkli protezlərdə okklüziyanın tənzimlənməsi.

6. Dental implantasiyada diaqnostik vizualizasiya üsulları. Dental implantların hazırlanacaq ortopedik konstruksiyaya uyğun planlanması. Abatmentlər, növləri, xüsusiyyətləri. İmplantüstü sementlənən və vidalanan konstruksiyalarla protezləmə.

7. İmplantlardan istifadə etməklə hissəvi adentiyalı çənələrin protezlənməsi. Tək diş implantasiyasında protezləmə. İmplant ətrafı təbii dişlərin mövcudluğunda ortopedik müalicənin xüsusiyyətləri. İmplantlardan istifadə etməklə tam adentiyalı çənələrin protezlənməsi. İmplant dəstəkli hərəkətli konstruksiyalarda abatment seçimi.

8. Dental implantasiyadan sonra dərhal yükləmə. İmplantüstü protezlərə qulluq. Periimplantitlərin profilaktikasında gigiyenik tədbirlərin vacibliyi. İmplantüstü protezlərin istifadəsi zamanı yarana biləcək ağırlaşmalar.

## Ortopedik stomatologiya - 7

# KLİNİK ORTOPEDİK STOMATOLOGİYA

V kurs X semestrdə
mühazirələrin mövzu planı

1. Diş tacı qüsurlarının müalicəsində hazırlanan ortopedik konstruksiyalar. Dişlərin yonulmasının əsas prinsipləri. Taxmalar. İnley (*inlay*), onley (*onlay*), overley (*overlay*), vinir (*veneer*) konstruksiyaları. Tam keramik, metal-keramik qapaqlar. Müvəqqəti qapaqlar. Diş tacının tam qüsurunun bərpası. Güdüllü konstruksiyalar (*post core*).

